**Fəridə Hacıyevanın həyat və fəaliyyətinin əsas tarixləri**



**1953-** Mart ayının 30-da Sumqayıt şəhərində anadan olmuşdur.
**1971-** N.K.Krupskaya adına Kitabxanaçılıq texnikumunu bitirmişdir.
**1972-** M.F.Axundov adına Dövlət Kitabxanasında işləyir.
**1976-** Azərbaycan Dövlət İncəsənət Universitetinin Mədəni-maarif fakültəsini bitirmişdir.
**1982-** Azərbaycan Televiziya, Radio və dövri mətbuat səhifələrində müntəzəm çıxış edir.
**1982-** **"Söylə, gülüm"** adlı ilk şeiri "Ulduz" jurnalında çap olunmuşdur.
**1983-**
**1992-** Mədəniyyət Nazirliyinin nəzdində Aşıqlar Birliyinin metodisti və daha sonra folklor şöbəsinin müdiri vəzifəsində işləmişdir.
**1984 -** Aşıqlar Birliyinin, Aşıq Pəri məclisinin üzvüdür.
**1986-** **"Gül açan xatirələr"**; **"Ümid çırağı"; "İtirilmiş yurd yeri"** pyesləri Mədəniyyət Nazirliyi tərəfindən qəbul olunmuşdur.
**1992-** M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında bu günə qədər "Dövri mətbuat" bölməsinə rəhbərlik edir.
**1998-** Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.
**1998-** **"Məni məndən alan dünya"** adlı ilk kitabı çap olunmuşdur.
**1999-** **"Məhsəti"** qadın şairlər məclisi idarə heyətinin üzvüdür.
**2000-** Azərbaycan-Rumıniya Mədəni Əlaqələr Birliyinin üzvü və sədr müavini olmuşdur.
**2001-** **"Ulduzlardan pay istərəm"** adlı tərcümə kitabı nəşr olunmuşdur.
**2003-** "Araz" ali ədəbi media mükafatına layiq görülmüşdür.
**2004-** " Məhsəti Gəncəvi" adına Fəxri diplomla təltif olunmuşdur.
**2004-** "Qızıl Qələm" Fəxri mükafatı ilə təltif olunmuşdur.
**2009-** Mədəniyyət və Turizm Nazirliyinin Fəxri diplomuna layiq görülmüşdür.
**2010-** Bir illik Prezident təqaüdünə layiq görülmüşdür.
**2010-** **"Hu, Mevlam, hu**..." şeirlər kitabı çapdan çıxmışdır.
**2013-** 60 illik yubileyi Azərbaycan Yazıçılar Birliyində təntənəli şəkildə qeyd olunmuşdur.
**2013-** Mədəniyyət və Turizm Nazirliyinin fəxri mədəniyyət işçisi doş nişanı ilə təltif olunmuşdur.

# Fəridə Hacıyeva




# Bibliografiya

*Azərbaycanın görkəmli qadın şairləri*

**60 illik yubileyi münasibətilə**

# FƏRİDƏ HACIYEVA

## *Biblioqrafiya*

**Nərgiz** *NƏŞRİYYATI*

***BAKI-2013***

*Tərtibçi-müəllif*: Nağıyeva Şəhla İkram qızı

*Redaktor*: Vəliyeva Mədinə Əlibala qızı

**Fəridə Hacıyeva. Biblioqrafiya: 60 illik yubileyi münasibətilə Bakı: "Nərgiz" nəşriyyatı 2013.- 116 səh. + 20 səh. rəngli şəkil. Azərbaycanın görkəmli qadın şairləri.**

$F \frac{742000000}{079} 789 - 2013$

**© "Nərgiz", 2013**

## Tərtibçidən

2013-cü ilin mart ayının 30-da Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatı, şairə, M.F.Axundzadə adına Milli Kitabxananın "Dövri mətbuat" bölməsinin müdiri Fəridə xanım Hacıyevanın anadan olmasının 60 illiyi tamam olur.

Yubiley münasibətilə tərtib olunan bu Biblioqrafiya kitabı Fəridə Hacıyevanın həyat və yaradıcılığının 1982-ci ildən 2013-ci ilə qədərki dövrünü əhatə edir.

Oxuculara təqdim olunan bu vəsaitdə Fəridə Hacıyevanın həyat və fəaliyyətinin əsas tarixləri, Görkəmli şəxslər və yazıçı dostları Fəridə Hacıyeva haqqında, Əsərləri, Dövri mətbuatda və məcmuələrdə nəşr olunan əsərləri, Tərcümə etdiyi əsərlər, Həyat və yaradıcılığı haqqında materiallar və vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə tərtib edilmiş köməkci göstəricilər verilmişdir. Bölmələr daxilində materialların xronoloji ardıcıllığı gözlənilmişdir.

Fəridə Hacıyevanın əsərləri və haqqında məlumatları Milli Kitabxananın internet saytından (***anl.az)*** və İnternetdən ***(Google)*** axtara biərsiniz.

## Fəridə Hacıyevanın həyat və fəaliyyətinin əsas tarixləri

| | |
|---|---|
| **1953 - cü il** | - Mart ayının 30-da Sumqayıt şəhərində anadan olmuşdur. |
| **1971 - ci il** | - N.K.Krupskaya adına Kitabxanaçılıq texnikumunu bitirmişdir. |
| **1972 - ci ildən** | - M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında işləyir. |
| **1976 - cı il** | - Azərbaycan Dövlət İncəsənət Universitetinin Mədəni-maarif fakültəsini bitirmişdir. |
| **1982 - ci ildən** | - Azərbaycan Televiziya, Radio verilişlərində və dövri mətbuat səhifələrində müntəzəm çıxış edir. |
| **1982 - ci il** | - **"Söylə, gülüm"** adlı ilk şeiri "Ulduz" jurnalında çap olunmuşdur. |
| **1983-1992-ci illər** | - Mədəniyyət Nazirliyinin nəzdində Aşıqlar Birliyinin metodisti və daha sonra folklor şöbəsinin müdiri vəzifəsində işləmişdir. |
| **1984 - cü ildən** | - Aşıqlar Birliyinin, Aşıq Pəri məclisinin üzvüdür. |
| **1986 - cı il** | - **"Gül açan xatirələr"**; **"Ümid çırağı"**; **"İtirilmiş yurd yeri"** pyesləri Mədəniyyət Nazirliyi tərəfindən qəbul olunmuşdur. |

| | |
|---|---|
| **1992 - ci ildən** | - M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "Dövri mətbuat" bölməsinə rəhbərlik edir. |
| **1998 - ci ildən** | - Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. |
| | - **"Məni məndən alan dünya"** adlı ilk kitabı çap olunmuşdur. |
| **1999 - cu ildən** | - "Məhsəti" qadın şairlər məclisi idarə heyətinin üzvüdür. |
| **2000 - ci il** | - Azərbaycan-Rumıniya Mədəni Əlaqələr Birliyinin üzvü və sədr müavini olmuşdur. |
| | - **"Dünyama qovuşacağam"** kitabı çap olunmuşdur . |
| **2001 - ci il** | - **"Ulduzlardan pay istərəm"** adlı tərcümə kitabı nəşr olunmuşdur. |
| **2003 - cü il** | - "Araz" ali ədəbi media mükafatına layiq görülmüşdür. |
| | - **"Göylər pənahım mənim"** adlı kitabı çap olunmuşdur . |
| **2004 - cü il** | - "Məhsəti Gəncəvi" adına Fəxri diplomla təltif olunmuşdur. |
| | - **"Bağışla Vətən, bağışla"** kitabı çap olunmuşdur . |
| | - "Qızıl Qələm" Fəxri mükafatı ilə təltif olunmuşdur. |

**2006 - cı il** - **“Qaytaram Tanrı sevgisin”** kitabı çap olunmuşdur .

**2009 - cu il** - Mədəniyyət və Turizm Nazirliyinin Fəxri diplomuna layiq görülmüşdür.

**2010 - cu il** **-** Birillik Prezident təqaüdünə layiq görülmüşdür.

**- “Hu, Mevlam, hu**...” şeirlər kitabı çapdan çıxmışdır.

**2013 - cü il** - 60 illik yubileyi Azərbaycan Yazıçılar Birliyində təntənəli şəkildə qeyd olunmuşdur.

- Mədəniyyət və Turizm Nazirliyinin “Fəxri mədəniyyət işçisi” döş nişanı ilə təltif olunmuşdur.

# Mevlana zirvəsi

Bir anlıq təsəvvür edəndə ki, günəş öz parlaq şöləsini yer üzünə paylayıb, qızıl tellərini aləmə saçmayacaq, bu zaman gözlərim önündə bir zülmət canlanır. Zülmətin xofundan insanın qanı donur.

Bir an dünyanın öz çevrəsindən çıxdığını təsəvvür edirsən. Bax, beləcə 800 il insanların iç dünyasını öz parlaq nuruna qərq edən, ürəklərdə xoş duyğular bitirən, kiçikdən böyüyə qədər sevgi adlı möhtəşəm hissin – həyəcanın incəliyini, sirli-sehirli cazibəsini çox sərrast, ustalıqla könüllərə hopduran Əfəndimiz, ağamız Hz. Mevlana dühasının, eşqinin nuruna xələl gələrsə, elə o andaca insanın iç dünyasında aramsız döyünən qəlbi susar, dayanar.

İnsan könlünün gülüstan əlvanlığı solar. İllər, qərinələr, əsrlər ötdükcə Ağamız, Sultanımız Hz. Mevlananın böyüklüyü, ucalığı yer üzünün ən qiymətli, cilalanmış daş-qaşından üstün görünür.

Artıq 800 ildir ki, bütün türk dünyası Hz. Mevlana zəkasının işığına qızınır, ruhunda mənən rahatlıq tapır. Onun bu günə qədər miras qoyduğu lətif sözlər, kamil fikirlər, mərifət, həqiqət, gözə görünməyən varlıqlar ən dərin mənanı kəsb edir. Bəli, bu gün qəlbimizin ən parlaq günəşi, nuru Hz. Mevlananın müqəddəs adı, möhtəşəm, ölməz varlığıdır.

Mənə elə gəlir ki, günəş, ay, ulduzlar öz nurunu itirməyən kimi, Mevlana böyüklüyünün işığı öz şöləsini itirə bilməz. Hz. Mevlana elə bir varlıq, elə bir parlaq günəşdir ki, onun yaydığı qızıl tellər min-min könüllərə sevgi adlı gözəllik bəxş edir. Onun əsərlərinin sehri insanların həyat məktəbinə çevrilir. Hər birinə düz yolun yolçusu olmaqda kömək edir. Mevlana sevərlər "Məsnəvi"nin hikmətindən, "Divani Kəbir"in coşqulu mövzusundan bəhrələnərək yüz illərdir ki, mənən təmizlənə-təmizlənə gedirlər. Hz. Mevlananın hər bir

sətri, hər bir kəlməsi insanın iç dünyasının məlhəmidir. Görün, Hz. Mevlana nə deyir: “Bir könüldə könül nuru olmadımı, o könül könül deyildir”; “Bir bədəndə ruh yoxsa, o bədən torpaqdan ibarətdir”; “Könül səndən razısa, mən də razıyam. Könül səndən üz çevirmişsə mən də üz çevirərəm”; “Süleyman Peyğəmbər o elçilərə dedi ki, ey utanan elçilər, geri dönün, altun sizin olsun: mənə könül gətirin, könül”. Nə qədər hikmətamiz, nə qədər ibarətamiz sözlərdir. Belə bir məqamda mənə elə gəlir ki, sultanımız Hz. Mevlana ən qüdrətli memara dönüb insan könüllərini gözəlliklə yapır. Və göylərin sonsuzluğundan hər birini sevgilə seyr edir. Bu əsərlərin böyüklüyü, ucalığı ondadır ki, Hz. Mevlana Quranın aliliyini tam mənasında dərk edib, onun möcüzəli sehrindən bəhrələnərək, ölməz əsərlərini yaratmışdır. Hz. Mevlananı bilmək və anlamaq bəs etməz. Onu duymaq gərəkdir. Yüz illərlə onun yolunun işığı ilə gedən insanlar Hz. Mevlana gözəlliyinin ümmanına baş vuraraq incilər toplamış, könüllərdən-könüllərə çatdırmışlar. Yüz illərdi Türk dünyasının nur sultanına əsərlər həsr eləmiş, şeirlər yazmışlar.

*“Mevlanadı evliya kutbu bilin,*
*Ne kim ol duyurdusa annı kilin.*
*Tanrıdan rahmetdir onun sözləri,*
*Körler okusa açıla gözləri”*

Təbii ki, burada oğlu Sultan Veled, könül gözünün açılmasından söhbət açır. Qadın şairlərimiz də Hz. Mevlanaya bir çox şeirlər həsr etmişlər. Bunlardan miras olaraq on yeddinci əsrin şairlərindən Leyla xanımı yada salaq

*“Eseri aşkın ile şemi kamer.*
*Hep semain qibi dövran eyler.*
*Merhemet sendən olur eyle nazar,*
*Medet et bendene ya Həzrəti Pir”.*

Bəli, şairlər, söz-sənət adamları onun hər sətrindən ruh, qida ala-ala yazıb yaratmışlar. Və hər biri böyük ustadın qarşısında öz kiçikliklərini hiss etmişlər. O vaxtlar islamda sənətə etiraz edənlər olduğu halda, mevləvilərdə sənətə böyük yer verilirdi. Bu təriqətdə gözəl əsərlərin öz qiyməti, yeri olurdu. Məsələn, Fenni Dədənin "Vaza içində çiçəklər"i, Dərviş Süleymanın gülləri və bir çox buna bənzər rəsm əsərləri yada düşür. Hz. Mevlana sənətin bütün qollarına yer verdiyi qədər, rəsmə də önəm vermişdir. Bu böyük mürşid sadə axirəti xatırlatmış deyil, dünyanı da sevməyi öyrətmişdir. Ümidsizlərə ümid yeri olmuş, günahkarlara təsəlli qapılarını açıq qoymuş və sevgi, şəfqət göstərmişdir...

... Hz. Mevlana haqqında cildlərlə kitablar, həyatı, yaradıcılığı ilə bağlı elmi əsərlər yazılıb. Bir çox insanlar elmlər namizədi, doktorluq elmi adına yiyələniblər. Mənim isə bu müqəddəsə sevgim tam başqadır.

Bu təmənnasız sevginin yolu o qədər mənalıdır ki, bu incə yolu gedə-gedə haqq yoluna çatmağın gözəlliyini dərk edirsən. Bu yolun əzabını, ağrısını, əlvanlığını, paklığını olduğu kimi qəbul edirsən. Qəlbinin səsini ney səsinin saf, təmiz tellərində-nəğmələrində kökləyirsən. Tanrının eşidə biləcəyi ney sədaları altında gediləcək yol, insanlığın özüdür. İllərdi kimsədən xəbərsiz, gözə görünməz bir xəyal kimi əlimdə əsam, bir də nəfsin açarı, Sultanım Hz. Mevlananın izinə düşüb, onun qurub yaratdığı insanlıq bağçasına tərəf, bütün gözəlliklərdən pay ala-ala gedirəm. Və inanıram ki, bu yolun ölməzliyini, gözəlliyini qoruyan müridlər nəsil-nəsil artacaq, kamilliyin zirvəsinə ucalacaqlar. Qoy, tanrım bu yolun yolçularına kömək olsun.

***Fəridə Hacıyeva,***

*Azərbaycan Yazıçılar Birliyinin üzvü, şairə*

## Görkəmli şəxslər və yazıçı dostları Fəridə Hacıyeva haqqında

Fəridə xanımı mən çoxdan, hələ "Aşıq Pəri" məclisinin ilk günlərindən tanıyıram, kövrək, incə qəlbli bir gənc şairə kimi. İllər ötdükcə, Fəridə xanımın imzasını dövri mətbuatda izlədikcə səhv etmədiyimi, Azəri-Türk qadın şairləri cərgəsinə ləyaqətli bir qələm sahibinin də daxil olduğunu görür, sevinirdim. Amma hər halda səkkiz saatlıq iş günü, analıq, evdarlıq zəhmətləri içərisində onun bu qədər ədəbi məhsul yetirdiyini düşünməmişdim. Onların içərisində bədii cəhətdən elə qüvvətliləri var ki, lap ustad aşıqlarımızın yoluyla gedərək, cinas qafiyələr belə yaratmaq təşəbbüsünə sevindim. Onun Sarı aşığa, "Heydər baba"ya və onlarla başqa mövzulara həsr etdiyi şeirlər belədir. Hansı mövzuda yazır-yazsın, Fəridə xanımın nazik qəlbi həyəcanla səslənir, mahnı kimi, bayatı kimi. Kəndlərin boşalıb, cavanların şəhərə axışması, qocaların gözü yollarda qalması, insanın bir-birinə münasibətindəki narahatlıq, inciklik incidir kövrək qəlbini şairənin. İnsan insandırsa bir-birini sevməli, hörmət, məhəbbətlə yaşamalıdır: "Daha incitmərəm səni", "Dağ kəndi" və onlarla başqaları kimi şeirlərdə şairənin kövrək qəlbi həyəcanla dinlənir, amma bağırtıyla deyil, incəcə. Lakin "İnsan" şeirindən çıxarılan fəlsəfi nəticə şairənin təntənəsidir-fikir, duyğu təntənəsi. Həyatda gördüyü yamanlardan, acılardan cıxardığı nəticə:

*Vallah, gülə dönür güllər içində*
*Daşlar arasında daşlaşır insan.*

Bu, Fəridənin poetik kəşflərindən biridir. Bax, elə şairəni qorxudan da bu daşlaşmadır, tənhalıqdır. Qaçmağa çağırır bu hallardan.

Dönə-dönə demişəm ki, mən klassik şeirlə, əruz və hecayla poetik tərbiyə aldığımdan sərbəst vəzni o qədər də sevmirəm. Amma Fəridə xanımın elə sərbəst şeir parçaları var ki, onlar əsl şeir nümunələridir.

Fəridə xanımın bu günümüzlə-bəlalarımızla, şəhidlərimizlə, yağı tapdağı altında inləyən torpaqlarımızla bağlı poetik parçaları bütün başqa əsl qələm sahibi şairlərimiz kimi titrədir oxucunu. 90-cı ilin qara yanvarında rus istilaçı canavarlarının qırdığı, erməni faşistlərinin hücumlarına qarşı cəbhələrdə həlak olan şəhid oğullarımız, dağlarda donan, çadırlarda doğulanların faciəsi şairəni hər bir azəri türkü kimi elə sarsıtmışdır ki, bu mövzulara həsr etdiyi onlarla şeir millət anasının dediyi ağılardır, ana naləsidir; fəryadı göyləri titrədən dünya boyda dərd yağır bu şeirlərdən: "İnsaf ver, Allah!", "Bəlkə onda", "Gözüm baxır kor olmağa", "Qırmızı qərənfil", "Ay ellər"... Adlarını saymaq deyil, oxumaq lazımdır. Hər birimizin qəlbini oyan, oycalayan bu hisslər Fəridə xanımın da kövrək qəlbinə hopmuşdur.Uğur arzulayıram, şairə bacım, şairə qızım, Fəridə xanım

***Əzizə Cəfərzadə***
*Xalq yazıçısı, filologiya elmləri doktoru, professor*

## Vətənə bağlı poeziya

Ədəbiyyat tarixində hansı mövqedə dayanmasından, istedadının ölçüsündən asılı olmayaraq hər bir düşüncə sahibinin təbiətə və cəmiyyətə yalnız özünəməxsus yanaşma tərzi və sevdiyi mövzuları olur. Bu meyarla yanaşılarsa, şairə Fəridə Hacıyevanın ən çox sevdiyi və bütün ruhuyla bağlı olduğu mövzu Vətəndir. Şairənin oxuculara təqdim olunan yeni poetik toplusuna "Bağışla, Vətən, bağışla" adını seçməsi də bu mənada təsadufi səciyyə daşımır.

Şübhəsiz ki, Azərbaycan poeziyasında Vətən mövzusunda yazılmış şeirlərin təkrarsız nümunələri mövcuddur. Vətənlə bağlı yazılmış şeirlərin ümumi mənzərəsinə baxılarsa, burada bütöv halda Azərbaycanın təkrarsız gözəlliklərindən, yurdumuzun igid, qəhrəman övladlarından, tariximizin şərəfli səhifələrindən poetik bir dillə bəhs olunur. Lakin Fəridə xanımın şeirlərini başqalarından fərqləndirən ən mühüm cəhətlərdən biri onların içində yaşadığımız zamanın ruhunu əks etdirməsi, ağrı, əzab və sızıltıları bizə tanış olan dərd və faciələrə köklənməsidir.

Fəridə xanımın şeirlərini səciyyələndirən digər bir cəhət onun özünə xas müşahidə qabiliyyətilə şərtlənir. Bir çox istedad sahiblərinin görmədiyi, yaxud görüb də bir elə əhəmiyyət vermədiyi fakt və hadisələr onun şeirlərində poetik obraza çevrilir.

*Ürəyimizin yüz ağrısı dil açıb,*
*Həsrətə bax, yol boyunca əl açıb,*
*Yuxulardan lələ köçüb, el qaçıb,*
*Öz yurdumdan aralıyam, aralı.*

Fəridə xanım yaşadığı cəmiyyətdə hökm sürən haqsızlıqlara dözə bilmir. O, ətrafında baş verən eybəcərlikləri görmədiyi, haqqın, ədalətin ayaqlar altına salındığı dünyada xəyalən özünə bir "dünya" qurub yaşayan Aşıq Veysələ həsəd aparır. Gözü görə-görə özünü görməməzliyə vuranlarla barışa bilmir.

*Gözüm baxır,*
*sağa-sola,*
*Solum belə, sağım elə.*
*Bir işə bax,*
*gözüm baxır,*

*haqsılığa baxa-baxa*
*kor olmağa.*

Fəridə xanımın şeirlərində yadellilərin əlilə parça-parça doğranaraq hər tikəsi bir vəhşi caynağında fəryad edən Azərbaycanın acı, kədərli mənzərəsi bütün gerçəkliyi ilə canlanır. O, Vətənin qeyrətli övladlarını azadlıq savaşına qoşulmağa, tarixin yaralarını sağaltmağa çağırır. "Həsrətin daşını tökmüşük daha" adlı şeirində şairəni narahat edən əsas məsələ Azərbaycanın bölünməsinə, Vətənin ikiyə parçalanmasına olan biganəliyin gündən-günə güclənməsidir:

*Düzlərin laləsi biçilib, nədi,*
*Coşan şəlalələr içilib, nədi,*
*Dağlar da gözümdə kiçilib, nədi,*
*Ay Allah, bu nə çən, bu nə dumandı?!*

*Ay ellər, Araza nəğmə qoşan yox,*
*O eldən bu elə eh... qovuşan yox,*
*Gələnnən-gedənnən heç soruşan yox,*
*Bilmirəm kim kimdən imdad umandı.*

Fəridə xanımın fikirlərindəki ictimai ahəng lirik ovqatı üstələyir. Şairənin zahirən lirik təsir bağışlayan şeirləri də ictimai rəng və çalarlarla yoğrulmuşdur. Bu oradan qaynaqlanır ki, müəllifin yaşadığı və mənsub olduğu cəmiyyətdə baş verən sosial-siyasi hadisələr onun lirik ovqatını büsbütün cilovlamış, başqa bir səmtə yönləndirmişdir.

Müəllifi narahat edən məsələlərdən biri də xalqımızın öz elində özgələrə möhtac olması, özünü unudaraq yadların havasına oynaya-oynaya yadpərəstlik mərəzinə tutulması, milli mədəniyyətindən, əxlaqından, ənənələrindən uzaq düşməsi və nəticədə özünə qarşı çevrilməsidir.

*Nə firəngə, ingilisə qul ol sən,*

*Ana dilin düzümündə qurul sən, -*

- deyən şairə bu cür hallara kəskin etirazını bildirir.

Fəridə xanımın dili sadə, oynaq və axıcıdır. Şeirlərin ruhuna hopmuş həzinlik əsas üslubi keyfiyyət kimi səciyyələnir. Onun əsərləri oxucunu Vətən və mühit haqqında düşüncələrə çəkir, səfərbər edir.

Fəridə xanımın kitaba daxil etdiyi əsərlərin içərisində poetik örnəklərlə yanaşı, "İtirilən yurd yeri" adlı dramatik nümunə də düqqəti çəkir. Pyesdə erməni cəlladları tərəfindən işğal olunmuş torpaqlarımızın nisgili, həsrəti, son illərdə yaşadığımız faciələr əsas məqam kimi qabardılmışdır.

Şübhəsiz ki, Fəridə xanım ən gözəl əsərlərini hələ bundan sonra yaradacaqdır. Kitaba toplanmış poetik örnəklərin ümumi ovqatı bunu söyləməyə əsas verir ki, şairənin yaradıcılıq dünyası daim təzələnməkdə, yeni-yeni çalarlar kəsb etməkdədir.

**_Vaqif Sultanlı,_**
*Filologiya elmləri doktoru, professor*

## Mərifət, həqiqət və yeni şeir axtarışında...

Deyirlər dünyada şeirə maraq azalıb... Deyirlər-şeir oxucusunu itirməkdədir. İndi şeiri, umumiyyətlə, lirikanı insan şüurunun inkişafının aşağı səviyyələri üçün fəaliyyət növü hesab edənlər var. Bu cür fikirlərə və şeirə buna bənzər münasibətə dünyanın harasındasa, hər hansı bir ölkədəsə rast gəlmək mümkündür. Ancaq bizdə nəinki şeiri oxuyanların, heç yazanların da azlığından danışmaq düzgün olmazdı. Hərçənd elələri olur ki, indi şeirin çox yazılmasından, şeir yazanların çoxluğundan gileylənirlər. Bu cür gileylərin səbəbini başa düşmək çətin deyil. Azərbaycan böyük yaradıcılarının bolluğu baxımından şanlı-şərəfli yerlərdən birini tutur. Tarix boyu qüdrətli Azərbaycan şairləri elə böyük bir poeziya dünyası

yaratmışlar və Azərbaycan oxucusunda şeir haqqında elə yüksək təsəvvür formalaşmışdır ki, indi hər yazanı şair, yaxud lap elə hiss, həyəcan, duyğu və düşüncədən doğmuş olsa belə, hər yazılanı şeir kimi qəbul etmək olmur. Hər hansı halda, şeir yazanların və yazılmış şeirlərin çoxluğundan gileylənməyi, şikayətlənməyi yeganə, düzgün bir münasibət, hal kimi qiymətləndirmək olmaz. Ən əvvəl ona görə ki, bütün zamanlarda belə olub: yazanlar çox olub, gileylənənlər də tapılıb. İkinci bir tərəfdən, şeir təkcə hiss, həyəcan, duyğu və düşüncə daşqınından yox, həmçinin bütün bunlarla birlikdə gerçəkliyə, varlığa, estetik münasibətdən, gözəlliyə olan ehtiyacdan doğur. Şeir təkcə oxuyanı yox, ondan əvvəl yazanı saflaşdırır, hər ikisinin qəlbində və düşüncəsində bir gözəlləşdirmə, təmizləmə, insanilәşdirmə prosesinin heç olmasa, başlanğıcına səbəb olur. Gercəklik eybəcər olsa belə, şeir yazmaq üçün əlinə qələm alan, sözlərində bu eybəcərliyə qarşı qəzəb saçsa da, nəhayət ki, “toz içində qızılgül” itirmək kimi bir estetiklik idealı mövqeyindən çıxış etmiş olur.

Ədəbiyyatla yaşamaq, ədəbiyyatla yaşayanlar kimi ifadələr gündəlikdə az işlənsə də, belə həyat tərzi keçirənlər, ömür sürənlər az deyil. Belələri çox olmuşlar və onlar yazılanların və yazanların çoxluğuna biganə qala bilməzlər. Belələrinin mütailəsi sevdiyi müəllifin adını eşitdiyi bu və ya digər bir əsərini tapmaq arzusu, eşqi ilə coşanların mütaliəsinə bənzəməz. Birincisi, bu mütaliə fasiləsiz, aramsız, gündəlik görüləsi işə çevrilmiş olur, ikincisi, belə mütaliə təsirsiz də qalmır. Əksər hallarda əks-səda da doğurur.

Fəridə Hacıyevanın şeirləri mətbuat səhifələrində, telekanallarda və radio dalğalarında ilk rast gəldiyim, oxuduğum və dinlədiyim vaxtlardan diqqətimə səbəb oldu. Şairənin qələmə aldığı mövzu, ifadəsinə cəhd etdiyi poetik fikir və düşüncə aktuallığı, özünəməxsus təzəliyi, deyim tərzinin təbiiliyi, səmimiliyi və daxili enerjisi-hərarəti ilə xoş və

ümidverici bir təəssürat doğurdu. Nəhayət, şairənin çap olunmuş "Məni məndən alan dünya" adlı bir şeir kitabı ilə rastlaşanda bu təəssürat daha da güclənmiş oldu və onun haqqında eyni adlı yazı ilə mətbuatda çıxış etməli oldum.

İndi isə Fəridə Hacıyevanın çapa hazırladğı yeni bir kitabı qarşımdadır. Burada toplanmş şeirlərin heç biri şairənin bu kitaba qədər çap olunmuş kitablarına düşməmişdir və bu şeirlər heç də onun çap olunmuş son kitabından sonra yazdıqlarının hamısı deyil. Fəridə Hacıyeva az yazır demək olmaz. O kifayət qədər məhsuldar işləyir. Çapa hazırlanan kitabına topladığı şeirləri göstərir ki, mövzu və oxucuya çatdırılmalı, onda maraq doğura biləcək mətləb axtarışında uzun, üzüntülü yol keçmiş, çox deyiləsi və oxucuya çatdırılası fikir-mətləb bolluğu əhatəsində olduğu aydın görünür.

Yaralı Vətənin ağrıları, halı hər vaxt vətənə bağlı şairənin qəlb iztirablarının səbəbi olub, ağrılı bir mövzuya çevrilib. Bu mövzuda Əli bəy Hüseynzadə, M.Hadi, A.Səhhət, A.Şaiq kimi mütəfəkkir şairlərimiz olduqca yanğılı şeirlər yazmışlar. Poeziyamızda bir ənənəyə çevrilmiş bu mövzuya Fəridə Hacıyeva da etinasız qalmamışdır. Digər kitablarında Vətən mövzusunda verilmiş şeirləri kimi, onun bu kitabında da parçalanmış doğma torpağın, Ana Vətənin yadlar əlinə keçmiş parçasının doğurduğu ağrını əks etdirən "Torpağımız alınsa", "Vətən sənə qurban olum", "Elim hey..." kimi şeirləri diqqəti cəlb edir.

Məhz yaralı Vətənin halını faciə kimi dərindən yaşayan şairə bir şeirində yazır:

*Torpağımız alınsa,*
*Ömrü yarı böləcəm.*
*Özümü qurban verib,*
*Elə o gün öləcəm.*

Fəridə Hacıyevanın şeirlərində getdikcə acılı-şirinli xatirələr bir mövzu kimi daha geniş yer almağa başlayır. Belə şeirlərilə o, özü həm sevincli-sevgili, həm də qayğılı-düşüncəli bir həyat yolu keçmiş, həyat təcrübəsi olan bir adam, daha çox bir qadın-ana kimi bir növ obrazlaşır, onun yolu ümumiləşmiş bir səciyyə daşıyır, insan xisləti ilə əlaqədar bir məna və mahiyyət kəsb edir - "Beləcə günləri vuracam başa", "Yolum oradır", "O günlər", "Ağrı yarama düşüb", "Nağıllı dünyam dağılmış" və s. şeirlərində olduğu kimi.

Şairə bu cür şeirlərində xatirələr izinə düşür, könlünün nağıllı dünyasında-ömrünün yarısında olsa da sonsuzluqla uğraşır, şirin arzularn əsiri olaraq gah dağa, gah da arana köçür; bahar axşamlarında, aylı gecələrdə uçuşa çıxır, uzaqlara tələsir. Şairənin belə nağıllı, arzulu, diləkli dünyasının genişliyi, sonsuzluğu, onun bədii düşüncəsinin uçuşuna və genişliyinə də təsirsiz qalmır. Şairənin, qadın-ana-vətəndaş kimi haraylarının ifadəsinə çevrilir. Bu nəticə etibarilə insaniyyətə çağırış, insani dəyərlərə çağırış mənasını əks etdirir. Bütün bunlara sübut kimi müəyyən hallarda keçilmiş yolun şərəfini və bu şərəfə bağlı bitməzliyə, tükənməzliyə əminlik və yəqinlik ifadə edən "Yolun haradır" şeiri kimi ithaflar yaranır.

*Qardaş, yolun haradı?*
*Gedər-gəlməzə düşdün,*
*Orda kimləri gördün,*
*De, kimlərlə görüşdün?*

Məhz ona görə də:

*Könlün nəğməylə dolub,*
*Yaman səsin gələcək.*
*Hər kəlmən bircə-bircə,*
*Torpaqda cücərəcək.*

Fəridə Hacıyevanın xatirələr sorağına düşüb yazdığı şeirlərində lirik qəhrəmanı hicranlar, həsrətlər yandırıb yaxsa da o, sonu görünməyən ayrılıq girdabında batıb qalsa da,

"Nə yaman səninçün sənsizləşmişəm", "O günlə bir daha əlimə düşməz", -deyib, tənhalıq içində duyğuları ilə bəsləyir, bir növ savaşa girir, nəhayətdə tanrıya sığınmağa ümid bəsləyir.

Şairənin məhz tanrıya tapınaraq azan vaxtının yetişdiyindən, namazın mübarəkbadlığından söz açdığı şeirlərində bir təsəvvüf görüşünün izi, tanrıya sevginin, tanrı sevgisinin özü bütün aydınlığı ilə hiss olunur. Aşıq Veysəlin məşhur bir şeirində:

*"Uzun, incə bir yoldayam,*
*Gidiyorum gündüz-gece.*
*Bilmiyorum ne haldeyim,*
*Gidiyorum gündüz-gece."*

- deyildiyi kimi, Fəridə Hacıyeva da "Sevgi gəzirəm" adlı şeirində mərifət, həqiqət sevgisi axtarışında olduğundan söz açır.

*Sevgi gəzirəm*
*Babam,*
*Sevgi.*
*Könüllərin içində,*
*Yolum uzun,*
*yol gedirəm.*
*Sevgi*
*mənim içimdədi,*
*içimdə.*
*Sevgi gəzirəm*
*Babam,*
*Sevgi.*
*Mövlana,*
*Yunus sevgisi.*
*Zikr edəm,*

*Dönəm başına.*
*Qaytaram*
*Tanrı sevgisin...*

Ümumiyyətlə, çapa hazırlandığı bu yeni kitabına topladığı şeirləri Fəridə Hacıyevanın poetik sözə tələbkarlığının artdığını, bədii düşüncə hüdudlarının genişləndiyini göstərir. O, doğrudan da uzun bir yoldadır: Mərifət, həqiqət axtarışları və "yaxşı əsər, gözəl şeir" (Səməd Vurğun) yaradcılığı yolunda. Bu yolda narahatçılıqla, nigarançılıqla daim irəliləyir. Uğurlar olsun!

***Tofiq Hüseynoğlu,***
*Filologiya elmləri doktoru, professor*

## Əlvan sətirlər

XII əsrdən üzü bu yana Azərbaycan poeziyasını zənginləşdirən, adları ədəbiyyat tariximizdə iftixarla çəkilən neçə-neçə qadın şairələrimiz var. Fəlsəfi və tarixi anlam daşıyan tək ikicə misrası ilə poeziyamızın ədəbi salnaməsinə daxil olan münəvvər və zəkalı xanım şairələrimiz olduğu kimi, bu gün imzası neçə-neçə kitablarda görünən münəvvərlərimiz ədəbiyyatımızın şeir deyilən şərəfli və ağır yükünü öz zərif çiyinlərində daşıyırlar.

1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan, dövri mətbuatda, televiziya və radioda müntəzəm olaraq şeirləri ilə oxucu və dinləyicilərin görüşünə gələn Fəridə Hacıyeva "Gül açan xatirələr", "Ümid çırağı", "İtirilmiş yurd yeri", kimi bir neçə pyesin, Rumın şairi Muxay Eminoskodan etdiyi tərcümələrdən ibarət "Ulduzlardan pay istərəm" kitabının müəllifi olmaqla bərabər "Araz", "Məhsəti Gəncəvi", "Qızıl qələm" fəxri mükafatlarına da layiq görülmüşdür.

Şeirləri mənəvi saflıq üzərində köklənən Fəridə Hacıyevanın imzası 1990-cı illərdən mətbuat səhifələrində

görünməyə başlamış, keçən əsrdən başlayaraq onun “Məni məndən alan dünya” (1998), “Dünyama qovuşacağam” (2000), “Göylər pənahım mənim” (2004), “Qaytaram Tanrı sevgisin” (2006) kitabları çap olunmuşdur.

“Hu, Mevlam hu” Fəridə xanımın oxucuları ilə yenidən görüşüdür. 2006-cı ildə Türkiyənin Konya şəhərinin Səlcuq Universitetində “Mevlana və Mevlevilik” simpoziumunda iştirak edən Fəridə xanımın XIII əsr Türk dünyasının böyük mütəsəvvifi, Tanrı aşiqi və insan dostu olan Həzrət Mevlanə Cəlaləddin Rumiyə olan mənəvi borcunu ifadə edən bir çox şeirləri onun “Hu Mevlam, Hu” kitabında toplanmışdır.

“Hu” ərəbcə “O” mənasını ifadə edən Allahın ismidir. Arif sufilər, sufi böyükləri, “Allah” kəlməsini ululuq mərtəbəsində “Hu” şəklində ifadə etmişlər. Sufi dərvişlər zikr əsnasında Allahı “Ya hu” şəklində də zikr edərlər. Azərbaycan dilində bu ifadə “Ya Allah”, “Ey Allah” şəklində söylənilir.

Fəridə xanımın poetik süzgəcindən süzülərək şeirə keçən “hu” kəlməsi dərin poetik bir ifadə tərzi, gözəl bir ahəng və intonasiya ilə şeirlərində səslənir:

*Dağ başında zikr edən mən,*
*Neyə dönüb “Hu” deyəcəm.*
*Xoş səs könlümə düşəcək,*
*İlahidi bu deyəcəm.*

Fəridə Hacıyevanın “Hu, Mevlam hu” kitabında toplanmış Həzrət Mevlanəyə həsr etdiyi şeirlərin xüsusi izaha və ayrıca təhlilə ehtiyacı vardır.

“O şərabla sərxoşam ki, onun qədəhinin nəqşi eşqidir”, “Allah insana şah damarından daha yaxındır” , “Mən o varlığa qulam ki, onun qulu, köləsi eşqdir” – deyən Tanrı aşiqi insanlıq dostu olan Həzrət Mevlananın şeirlərindəki təməl görüş “Tək varlıq, ilahi eşq, insan sevgisidir”.

Bu sevgi, bu mənəvi böyüklük, bu ululuq şairəyə ilham vermiş, onun da varlığına hakim olmuşdur:

*Hər kəlməsi müşgi - ənbər qoxulu,*
*Hər sözünü şərbət bilib içirəm.*
*Bu nə aləm, bu nə sehir, ay Allah!*
*Eşq körpüsün xoş könüllə keçirəm.*

Kitaba daxil edilən "Qəlbimə inci düzəcəyəm", "Hu deyəcəyəm", "Yol açdım", " Dərgahına gəlmişəm", "Dünyam təzələnir", "Ney", "Səma rəqsi" kimi onlarla şeir Həzrət Mevlananın ilahi eşqindən mayalanmışdır. "Səma rəqsi" adlanan şeir kitabın maraqla oxunan şeirlərindən biridir.

Türk tarixinin, ənənəsinin, inancının bir parçası olan səma rəqsi insanların mənəvi səyahətini, kamala dogru gediş-dönüş yolçulugunu, yəni "meracını", nəfsini tərk edərək haqda yox oluşunu və kamil bir insan olaraq təkrar Allahın quluna dönüşünü ifadə edən 7 bölümlü dini bir rəqsdir. Səma rəqsini ifa edərkən qolları açıq olan səmazənin sağ əli dua edərcəsinə göylərə, Haqq gözü ilə baxdığı sol əli isə yerə dönük olur. Bunun mənası insan haqdan aldığı ehsanı xalqa verməsidir. Bu rəqs sağdan sola qəlbin ətrafında dönərək bütün insanları və yaradılışı sevgi ilə qucaqlayan ibadətdir, bir mənəvi səyahətdir.

Bu mənəvi səyahəti "Mevlanədən gələn nida" adlandıran şair yazır:

*Bir əl göydə,*
*Bir əl yerdə.*
*Yerlə göyü*
*birləşdirir.*
*İnsanlığı,*
*ucalığı,*
*Bu dünyada*
*Xoş niyyəti,*
*Qüdrətiylə,*

*Varlığıyla*
*Cəmləşdirir.*

Mevlanə yaradıcılığına aşina olanlar yaxşı bilirlər ki, Cəlaləddin Ruminin qeyri-adi şəkildə duymaq fəhmi onun istedadının xüsusi cəhətlərindən biri olmuşdur. Onun musiqi alətlərindən daha çox neyə meyilli olması əsərlərindən də görünür. Ney ilahinin insanlara müstəsna hədiyyəsidir. Mevlanənin yaradıcılığındakı bu cəhət Fəridə xanımın " Ney" adlı şeirində bütün atributları ilə ifadə edilmişdir.

*Ney...*
*Könlümün*
*Nur incisi.*
*Hər dərdimə*
*Məlhəm mənim.*
*Bu səs*
*Kədər,*
*Bu səs sevinc.*
*Bu səs*
*Eşqin bir incisi.*

Şübhəsiz ki, oxucular tərəfindən dərin təhlilini alacaq belə şeirlər Azərbaycan poeziyasının XXI əsrində Fəridə xanıma məxsus rəng və çalarları ilə işlənmiş, xüsusi ilham və məhəbbətlə qələmə alınmışdır.

Kitabda vətən, sevgi, torpaq, təbiət kimi bəşəri və əbədi mövzular, insan təbiətindəki mizan-tərəziyə dönən psixoloji mövzular da diqqət çəkən mövzulardır. Bu müqəddəs mövzulara Fəridə Hacıyeva çox həssaslıqla yanaşaraq, özünü imtahana çəkmiş, yaradıcılıq emalatxanasında tökdüyü alın təri, zəhmət və istedad hesabına gözəl poetik nümunələr ərsəyə gətirmişdir.

*Dağ başında buludların çələngi,*
*Tamaşadı meşələrin nəhəngi.*

*Bu torpağa kim veribdi bu rəngi,*
*Təbiətin möcüzəsi Qaxdı, Qax.*
*...Ürəyimə payız düşüb,*
*Payızdan qışa gedirəm.*
*Cavanlığım bir yuxuymuş,*
*Qocalıb başa gedirəm.*

Fəridə Hacıyeva şeirlərinin bəyənilən bir tərəfi də gördüyü, bildiyi, rast gəldiyi bir hadisəni mövzuya çevirməsidir.

*Qırmızıda qara gördüm,*
*Çünki qanım qara idi.*
*Qəlbim dərddən açılmışdı,*
*Puçur-puçur yara idi.*

Fəridə xanımın şeirlərinin biri "Sözüm bitib" adlanır. Daxili sarsıntıların poetik məhsulu olan belə nümunələr şairə sözün bitib- tükənməsini deməyə haqq vermir. Onun hələ neçə-neçə deyilməmiş sözləri olduğuna əminik. Tamamilə yeni bir nəfəslə yazılan "Hu, Mevlam, hu" kitabı isə Fəridə Hacıyevanın gərgin əməyinin və poetik təfəkkürünün məhsulu kimi diqqətəlayiqdir.

***Maarifə Hacıyeva,***
*Filologiya elmləri doktoru, professor*

## Celaleddin Ruminin izi ile

Hz. Mevlananın aşıkları aslında Hakkın aşıklarıdırlar. Onu sevenleri buna sevk eden, onun sevgisini yüreklerine yerleştiren yegane vasıta Allah sevgisidir. Allah (c.c.), "beni seveni ben de severim, onu mahlukata da sevdiririm" der.

Mevlanayı anlamak için onun kaynaklarını anlamak lazım. O ilham kaynağını şöyle izah ediyor: "Hayatta olduğum müddetce ben Kuranın bendesiyim, Hz. Muhammed Muhtarın haki rehiyim".

Hz. Mevlananın doğumunun üzerinden sekiz asır geçti. Onun hakkında yüzlerce kitap yazıldı ve hala da yazılmaktadır.

Onun eserleri hala büyük ilgi ile okunur. O en çok okunan yazardır. Onu asrımızda yeniden tanımak anlamaya çalışmak şarktan qarba kadar bütün insanlığın ortak meşgalesidir. Onun izinden giden bu yolun yolcuları kervanına dahil olanlardan biri var Feride Hacıyeva hanım. O bazen hüzünle, bazen ümidle. Kimi zaman sevincle, kimi zaman kederle ama daima inamla yoluna devam edir. O dilinde mevla zikri, kalbinde Mevlana fikri, deyir :

*Bu yolların yolçusuyam,*
*Qərib durna ovçusuyam,*
*Gözəlliyin yolçusuyam,*
*Ya Rəbb, sənə sığınıram.*

Mevlana da "dost istersen Allah yeter" deyir.

Mevlana yolu aşkı-hakiki yoludur. Bu yolun yolçuları gerçek aşkı bulanlardır. Şems yıllarca Mevlanayı aramıştı. Altmış yaşında Konyada Mevlanayı buldu. Mevlana da onu. Bu buluşma her ikisinin de manevi hayatlarında büyük inkılab idi. Şems onu  tutuşdurdu, o da onu aradığı manaya ulaştırdı. Her ikisinin izinden giden hakikat yolcusunun yolu sekiz asır sonra Konyada Mevlana dergahına ulaştı. Onunla mana aleminde görüşerek, ruhaniyyetinden bahrelenmiş ve hakiki aşkın cezbesiyle ney olmuş dile gelmiş "Hu, Mevlam hu" demekte.

Feride hanımın şiirlerini okurken insan kendini Hz.Mevlananın huzurunda hiss edir.Diline ve kalbine eşk olsun Feride hanım!

*Mehmet Rıhtım*

## Kövrək duyğular, zərif hisslər

Fəridə Hacıyevanın bu şeirlər kitabının da ilk oxucularından biri mən oldum. Yenə də onun zərif, incə, kövrək şair qəlbinin döyüntülərini eşitdim. Sevindim ki, Fəridə xanım ilk yazılarından üzü bəri–sonuncu hesab etdiyi şeirlərinəcən özünə, öz təbiətinə, şair sözünə sadiq qalır. Yenə də Fəridə xanım sevgidən yazır, bu sevginin ülviliyindən söz açır, ayrılıq, hicran və bu məşəqqətdən doğan hissləri şeirə çevirir. Yenə də Fəridə xanım yaşadığı dövrün onda doğurduğu ağrı-acılardan, dünyanın gərdişinin, fələyin çərxinin dəyişməsindən narahat olduğunu bildirir. “ Qəm mənim içimdədi – bu misra Fəridə xanımın bir çox minor motivli şeirlərinin dilini anlamağa kömək edir.

*Duman gəlib üstünə,*
*Dözəmmirəm tüstünə,*
*Dərd çəkilib üstünə,*
*A çadır şəhərciyim.*

Bu misralar içində qəm yaşadan bir şairin təkcə fərdi, şəxsi, məhrəm duyğularla deyil, həm də elin, obanın, xalqın, vətənin qəhrin çəkən bir yurddaşımızın ürəyindən keçən duyğulardır. Nəinki ürəyindən keçir, həm də bu duyğular onun taleyinin yaşantılarıdır. Çünki, Qarabağ müharibəsində Fəridə xanımın da əzizləri, doğmaları vuruşub, yaralanıb ya şəhid olublar. O çadırlarda yaşayan yurddaşlarımız içində yəqin Fəridə xanımın da əzizləri, qohumları var.

Fəridə xanımın şair dünyası həzinlik, kövrəklik və incəlik üstündə köklənib. Onun şeirlərində ağlar bir ürəyin sızıltıları

göyüm–göyümdür, göz yaşlarında zamanın dərdi, kədəri yuva salıb.

O, tanrıdan hünər istəyir ki, söz üstə ilmələnsin, oda-alova dönsün.

*Bənövşəm, sənə qurban*
*Solmusan mənim kimi.*

Gözəl misralardır və mən həmişə şeir oxuyanda bu misraları xatırlayacağam. Və mən həmişə Fəridə xanımın şeirlərini əlimə alanda, ola bilsin, ən gözəl şeirlərindən bir az zəiflik qaralayanda bax, bu misralar yadıma düşəcək. Mən Fəridə xanıma könül xoşluğu, gözəl şair taleyi arzulayıram.

***Vaqif Yusifli,***
*Filologiya elmləri doktoru, professor*

## Təmizlik və gözəllik poeziyası

Qədim yunanlarda Sapfo adlı qadın şairə olmuşdur. Dünyanın görkəmli ədəbiyyatşünasları, filosofları onu qadın kimi düşünüb, yazan şair kimi dəyərləndirmişlər. Qadın kimi düşünüb, duyub qadın kimi də yazmaq mədəniyyəti dünyanın kişilər tərəfindən görünməyən o biri üzünün açılması, aşkarlanması deməkdir. Anna Axmatova, Mariya Svetayeva, bizim poeziyamızda Mirvarid xanım Dilbazi, Nigar xanım Rəfibəyli, Mədinə xanım Gülgün qadın incəliyinin, xanım zərifliyinin söz ifadəsi kimi ədəbiyyat tarixinə daxil olmuşlar. Mətbuatdan izlədiyim və şeirlərini böyük maraqla oxuduğum Fəridə xanım Hacıyevanın şeirləri, məhz qadın kimi düşünüb, qadın kimi yazmağın örnəyi kimi ədəbiyyatımıza gəlmişdir.

Bəlkə də ədəbiyyatda cins bölgüsü aparmaq doğru deyil. “Aslanın erkəyi, dişisi olmaz”, deyimi ilə xalqımız qəhrəmanlıq, mərdlik dəyərini cinsə ayırmağa qarşı olmuşdur.

Ancaq bir həqiqəti unutmaq olmaz ki, qadın həssaslığın, zərifliyin meyarıdır. Qadın səsi, qadın sözü, qadın sevgisi məhz qadına aiddir. Qadın təkrarsızlığı poetik dünya üçün də təkrarsızlıq potensialı deməkdir.

Fəridə xanımın müxtəlif mövzulu, müxtəlif məzmunlu və formalı şeirləri dünyaya qadın baxışının poetik ifadəsi kimi qiymətlidir. Səmimiyyət, təbii həyəcan, ana təmkini, bacı istiqanlılığı, vətəndaşlıq qüruru bu şeirlərin qanına-canına hopub.

*Dərgahına qurban olum, əfəndim,*
*Hər daşına diz qoymağa izn ver,*
*İmanım sən, inancım sən, əfəndim,*
*Dərd versən də qəbulumdu, gizlin ver*

("Əfəndim")

- poetik parçası nə qədər təbiidirsə:

*Gəl yağışın altındaca qoşalaşaq.*
*Yağış yağsın.*
*Biz də elə yaşıllaşaq.*
*Bax beləcə,*
*pöhrələnsin*
*içimizdə,*
*min arzular.*

("İlham pərim")

- misraları qəlbin dərinliklərində yaşayan duyğuları:

*Dilin sözümə həsrət,*
*Dağım, düzümə həsrət,*
*Sözün düzünə həsrət,*
*Kömək ol, mənə, vətən.*

("Vətən")

- kəlmələrində vətən, yurd sevgisi qubar, məhəbbət, ilham dolu bir ürəklə vəsf olunmuşdur.

Bacı-qardaş istəyi, məhəbbəti poeziyasız da dünyanın sübut olunmuş istəyi, məhəbbətidir. Şairə bu təbii məhəbbətə də ay işığına bənzər qəmli, qüssəli bir işıqla dilə gətirir.

*Vallah, yetim qalan mənəm,*
*Hey gəzirəm tapammıram.*
*Qayğı dolu nəfəsini,*
*Bir kimsədə duyammıram.*
("Gəl görüşək")

Bədii sözün böyüklüyü, ülviliyi ondadır ki, şairin kədərini, dərdini sən öz kədərin, dərdin bilirsən və o duyğuları şairlə birgə yaşayırsan.

*Ağlamaqdan qəlpə-qəlpə*
*sınmışam,*
*Ağlamaram, mən də belə dəliyəm.*
("Vətənsiz")

- misraları doğma vətəni düşmən tərəfindən işğal olunan qaçqın –köçkün əhval - ruhiyyəsini ifadə edir. Hər gün yuxusunda doğma çinarı, böyüdüyü evi, toz qonmuş qəmli yolları, yetim kəhrizin yetim sularını görən şairin dərdi, kədəri insanidir, insani olduğu qədər də mətindir, sərt və barışmazdır.

Ocaq ilk növbədə ananındır. Ocaq itkisi ilk növbədə ana faciəsidir. Şairə bu faciəni yalnız kədərin dili ilə vermir, ümid və inamla vətən həsrətini dilə gətirir. Fəridə xanımın şeirlərində Natəvanın Qarabağ ətirli nəfəsi duyulur. Bu nəfəs "Gözlərim yoluna bir iz salacaq", "Odum alovum yox bir közüm qalıb", "Ümmandayam, öz gəmim yox", "Bu qar da, şaxta da ömrün payıdı", "Razıyam ölüb, ölüb Mən yenidən

doğulam”...... misralarından oxucu ürəyinə axır, axıb getdiyi yerlərə gözəllik, inam, saflıq, səmimiyyət aparır.

İstər qadın poeziyası olsun, istərsə də kişi. Əsl poeziya ürək poeziyası, könül səsidir.

Bu səsi dünyamıza gətirən, dilimizdə canladıran Fəridə xanıma zərif duyğular üçün təşəkkür edir, ona həmişə qadın baxışına, qadın ürəyinə möhtac olan böyük poeziya yolunla yeni-yeni uğurlar diləyirik.

***Kamil Vəli Nəriman oğlu,***
*Professor, filologiya elmləri doktoru*

## Nurlu xanımın işıq dünyası

Ölüb-qayıtmasam günahımdan keç... - qəribə deyilmi? Bu bircə misranın sehrinə düşüb olub-keçənləri çözələyə-çözələyə haralara gedib çıxmaq olurmuş. Bu bir misrada etiraf da var, üsyan da, kədər də var, inad da, arxayın-arxayın əl yelləyib getmək də var, halallıq almamış əbədiyyətə qədər uzanan yolun peşmançılığı da, ulu yaradana ərkyana irad da var, bir qadın taleyinin daşa toxunmuş nisgilli gileyi, göz yaşlarından islanmış kipriklərin həsrəti də... Beləcə bu misranın tilsimi ilə illərdən bəri sevib əzizlədiyim, qədir-qiymətini ürəyimdə göyərtdiyim, insanlığına, ədəb-ərkanına, dözümünə vurulduğum Fəridə xanımın ikinci kitabına, ön sözümə açar tapdığıma sevindim.

Şairlərin şeirləri özlərinə bənzəyir! Hər bir yaradıcı insan fikrindən, təxəyyülündən süzülən misraları qəlbinin süzgəcindən keçirir, hissləri, duyğuları ilə onu yoğurub-yapır və ağ səhifələrə köçürdüyü misralarda özünün obrazını cızır. Fəridənin şeirləri də onun özü kimi gözəl, zərif, utancaq, həyalı və qeyrətlidir, çünki Fəridə xanım torpağa, dünyaya böyük sevgi ilə yaşayan insandır.

*- Ey oğul!*
*Sən kimsən?*
*- Türk oğlu türkəm!*
*- Əslin kim,*

*Soyun kim,*
*Hardan gəlmisən?*
*- Şamanam, Oğuzam,*
*Ərəm, Göytürkəm*
*Köküm uzaqlardan*
*Yol alıb gəlir,*
*Hər daşa möhürümü*
*Vurub gəlmişəm!*

- deyir Fəridə xanım və bu misraların müəllifinin kişi qeyrətinə, qadın qüruruna, ana vüqarına heyran olursan, inanırsan ki, bu torpağın çökməyə, bu xalqın geriləməyə haqqı yoxdur, yağı əlində əsir qalan torpaqlarımızı unutsaq, tarix bir yana, heç allah da bizim günahlarımızdan keçməz, gələcək nəsillər yeddi arxa dönənimizə lənət yağdırar.

*- Ey igid!*
*Sözün nə,*
*andın nə sənin?*
*- Elimi, obamı*
*geri almaqdı...*
*Sönən ocaqları*
*gur qalamaqdı...*

Şairə xanım yaxşı bilir ki, azadlığa, səadətə gedən yol təkcə Azadlıq meydanının başgicəllədən ehtizazından, mitinq ehtirasından, kütlələrin şüurunu kütləşdirən eyforiyalardan ibarət deyil. Vətəndə o vaxt rahat yaşamaq olur ki, onun kəndində-şəhərində firavanlıq hökm sürsün, insanların insan kimi yaşamaq haqqı qorunsun. Bununçünsə, Azərbaycanın hər

bir vətəndaşının siyasi mənsubiyyətindən asılı olmayaraq sağlam fikrinə, xalqın, yurdun rifahına yönəlmiş sivil mübarizəsinə hörmətlə yanaşılmalıdır, əllər sıx birləşməli, ürəklər eyni ahəngdə köklənməlidir.

*Hər kəlməm, hər sözüm dinim, mürvəti*
*Vətənə xor baxan, vətən töhməti*
*Yaman səpələnir el qənimәti*
*Əllər uzalıdı, bac dünyasıdı.*

*Haydı, haray salın, dağlar ucalsın,*
*İgidlər tanrımdan, yerdən güc alsın,*
*Bir vətən cəngisi qoy havalansın,*
*Meydan hasarlanıb qoç dünyasıdı.*

Fəridə xanımın ikinci kitabına daxil edilmiş şeirlərin bir çoxu haqqında danışmaq, hər birini ayrılıqda təhlil etmək mümkündür, bu onun şair ömrünün göz önündə olan, hər birimizin hiss edə biləcəyi həqiqətlər, yaşantılardı.

Mənsə, Fəridə xanımı daha çox bir insan, ana, həyat yoldaşı, gəlin və bacı kimi sizə tanıtmaq istəyirəm. Biz yeniyetmə çağlarımızdan bir-birimizi tanıyırıq. Onun bütün həyatını, yaşantılarını, sevinc və əzablarını, uğurlarını da görmək imkanım olub.

Fəridə uğurlarını doğmaları sırasında mənimlə də bölüşüb, onun faciə və kədəri əzizləri qədər məni də sarsıdıb, kədərləndirib. Ulu tanrımız bəzən sevdiyi insanları dönə-dönə imtahana çəkir, sınaqdan keçirir. Fəridə də lap erkən ata-anasını, doğmalarını itirib. Amma yenə özündə təpər tapıb ayağa qalxıb, sınmayıb, əyilməyib. Ay parçası kimi iki övlad bəxş edib dünyaya, lap cavankən nənə olub, qaynanasının, qaynatasının qulluğunda durub, yorulub-usanmayıb, onların bir sözünü iki eləməyib.... Dara düşən hər kəsin köməyinə birinci yetib, öz ağrılarını unudub, başqasının dərdinə əlac axtarıb.

Sanki bu xöşbəxtliyini, əzabla yoğrulmuş bu səadətini də ona çox görüb tanrım.

Fəridənin bütün müvəfəqiyyətlərinə sevinən, yaradıcılıq şıltaqlığına dözən və onu dünyada hamımızdan çox sevən həyat yoldaşı Rövşənin vaxtsız vəfatı Fəridənin şeirlərinə nisgil, həsrət tonları əlavə etdi.

*İlahi bu boyda bəlamı olar,*
*Meydanda qalmışam, gör necə təkəm,*
*Dərdin ağırlığı bir dəvə yükü,*
*Ağzımda böyüyür yediyim tikə...*

Və sonra Fəridə xanım ilk şeirlər kitabını "Məni məndən alan dünya" adlandırmışdı. Bu ürəyədamma idi, ya taleyin qisməti bilmirəm. Bəlli olan budur ki, Fəridə xanım:

*Bu dünyadan mən əlimi üzmüşəm,*
*Bu dünyayla haqq-hesabım qurtarıb.*
*Ötənlərə necə olub dözmüşəm,*
*Keçmiş ola, daha səbrim daralıb* - deyir.

Ancaq biz Fəridəni sevən dostları ona, səbir, təmkin, tükənməz yaradıcılıq həvəsi arzulayırıq.

Fəridə xanım bilməmiş deyil ki, bu həyat da, bu ömür də şirin bir yuxudur. Bəlkə də nə vaxtsa, ayılanda biz tanrıya üz tutub:

*Nə vaxtsa, nə vaxtsa*
*Mən də öləcəm!*
*Ölümə güc gəlib*
*Yenə güləcəm...*
*Nə deyim, nə deyim*
*Mən bilmirəm heç*
*Ölüb qayıtmasam,*
*Günahımdan keç...*

təsəllisinə güvənirik. Ümidinin ömrü arzularına calansın, Fəridəm! Oxucularla yeni görüşün mübarək!

**Telli Pənahqızı,**
*Jurnalist, şairə*

# Ömürdən səhifələr



**Şuşa xanımlarından olan ana nənəmin anası Cavanşirova Xeyransabəyim**



Anamın atası Minbaşiyev İskəndər bəy



Anamın anası Bikəbəyim



**Atam Məcid, anam Bəşər xanım**



**Həyat yoldaşım Rövşən**




**Hacıyeva Fəridə (16-yaş)**





**Qardaşım Yusif və atam** **Hacıyeva Fəridə (14-yaş)**

## Ləyaqətli qadın, gözəl şairə

Fəridə Hacıyevanın adı ədəbi aləmə çoxdan və həm də çox yaxşı tanışdır. Fəridə Azərbaycanın çox güclü şairlər ordusunda layiqli yeri olan bir şairdir. Mən bu yazımda Fəridənin şairliyindən şeirlərindən danışmaq istəmirəm. Çünki, onun şeirlərini təhlil etmək , onlar haqda mükəmməl fikir söyləmək iqtidarında deyiləm. Bu haqda söz sərrafları öz dəyərli fikirlərini dəfələrlə söyləyiblər və elə oxuculara təqdim olunan bu kitabda da öz sözlərini deyiblər. Mən Fəridəni oxuculara bir insan, bir qadın, bir şəxsiyyət kimi tanıtmaq istəyirəm. Əslində Fəridənin şeirlərindən onun özü, qəlbi, öz xarakteri boylanır. Həssas oxucu Fəridənin kimliyini o an anlaya bilər. Fəridə Sumqayıt şəhərində müəllim ailəsində dünyaya gəlib. Əsli-kökü isə ulu Qarabağa, bu gün həsrətlə anılan Qubadlıya bağlıdır. Bəlkə Qarabağ dərdinə odlu yanğı elə bundan irəli gəlir. Qanla keçən bu təəssübkeşlik hissi, ağrı bütün yaradıcılığı boyu açıq-aşkar hiss olunur. Fəridənin valideynləri sözün əsl mənasında ziyalı vətəndaş olublar. Mən onun valideynlərini görməmişəm, amma Fəridənin aldığı tərbiyə onların simasını çox gözəl əks etdirir.

Kim nə deyir-desin, ilkin ailə tərbiyəsi insan xarakterinin formalaşmasında, bütün həyat yaşantısında özünü göstərir və böyük rol oynayır.

Fəridə xanım 1971-ci ildə K.Krupskaya adına kitabxanaçılıq texnikumunu, 1976-cı ildə isə Azərbaycan Dövlət İncəsənət Universitetini bitirib. 1983-cü ildə Respublika Aşıqlar Birliyində metodist, folklor şöbəsinin müdiri vəzifəsində çalışıb. O zamanlar Fəridə artıq tanınan şair idi. Şeirləri dövri mətbuatdan, televiziya verilişlərindən oxuculara yaxşı tanış idi.

Hal-hazırda Fəridə milli-mənəvi sərvətimiz olan M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının dövri-

mətbuat bölməsinə rəhbərlik edir. Mən indi Fəridə xanımla həmkaram, iş yoldaşıyam. O öz işini sevən, ona məsuliyyətlə yanaşan bir vətəndaşdır.

Fəridə xanımın üç pyesi Mədəniyyət Nazirliyi tərəfindən qəbul olunmuşdur. Onun şeirlərinə gözəl bəstəkarımız mərhum Süleyman Ələsgərov böyük qiymət vermiş, mahnı bəstələmişdir. "Aşıq Pəri" adlı şeirinə Sevda İbrahimova mahnı bəstələmişdir. Fəridənin şeirləri həm də qardaş Türkiyədə çap olunur. Müxtəlif illərdə poeziya almanaxı "Azərbaycan harayı" adlı toplularda Fəridənin silsilə şeirləri çap olunmuşdur. İlk kitab isə 1998-ci ildə "Məni məndən alan dünya" adı ilə çap olundu. 2000-ci ildə "Dünyama qovuşacağam" adlı şeirlər kitabı, 2001-ci ildə isə görkəmli Rumın şairi Mixay Emineskonun şeirlərinin tərcüməsində "Ulduzlardan pay istərəm" adlı kitabı çap olunmuşdur. Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Fəridə xanım həm də fəal ictimaiyyətçidir. Azərbaycan Rumıniya Mədəni Əlaqələr Birliyinin üzvü, "Şam" ədəbi məclisinin, "Məhsəti" şairlər məclisinin, "Aşıq Pəri" məclisinin ilk üzvlərindən biri olub. Fəridə xanım gözəl şair olduğu kimi, həm də gözəl dost, gözəl insandır. Qayğıkeş ana, səliqəli sahibə, mehriban, bir az da ciddi nənədi. Vaxtsiz itirdiyi Rövşən müəllimə sədaqətli ömür-gün yoldaşı olan Fəridə xanım iki ağıllı, savadlı, ləyaqətli övlad yetişdirib cəmiyyətə vermişdir. Nənə sevincinin xoşbəxtliyini yaşayan Fəridəyə daha böyük sevinclər arzulayıram.

Mən bütün azərbaycan qadınlarında görmək istədiyim, arzuladığım bir xüsusiyyəti Fəridədə görürəm və fəxr edirəm. Bu da bütün milli- mənəvi, etik normaları özündə cəmləşdirən ləyaqətdir. Mən onu ləyaqətli bir insan kimi tanıyram və sevirəm. Məncə ləyaqət hissi hamıda olmalıdır. Ələlxüsus qadınlarda. Qadın cəmiyyətin güzgüsü, mənəvi dəyərlərin əsas dayışıcısıdır. Milli-mənəvi dəyərləri özündə yaşadan hər kəs

millətin baş ucalığıdır. Məhz Fəridə xanım öz xalqına, vətəninə, ailəsinə başucalığı gətirən bir vətəndaş şairdir. Onun indi öz oxucularına təqdim etdiyi “Göylər pənahım mənim” kitabının seviləcəyinə və Fəridəyə yeni bir başucalığı gətirəcəyinə əminəm. Sənə cansağlığı və yeni yaradıcılq uğurları arzulayıram, bacım.

***Xuraman İsmayılova,***
*Əməkdar mədəniyyət işçisi, şairə*

Onun şeirləri saf, təmiz duyğularla pıçıldayan, bəzən isə haray qoparan iç dünyasının yaşantılarıdır. Onun Vətən sevgisində isə daxili təlatüm, azadlığa, səadətə bir şağırış səslənir.

***Mina Rəşid,***
*Jurnaliast, şair,*
*Yazıçılar Birliyinin üzvü.*

# I. ƏSƏRLƏRİ

## Kitablar

### 1998

**1. Məni məndən alan dünya** [Mətn]: [şeirlər və poemalar] /F. Hacıyeva; ön söz: Ə.Cəfərzadə.- Bakı: Səda, 1998.-176 s.

